MƏNİM İLK KİTABIM



# ÇƏPİŞ

altun kitab



Bir həyətdə balaca bir çəpiş yaşayırdı. Onun buynuzları təzəcə çıxmışdı. Çəpiş buynuzları ilə fəxr edirdi. Onları hamıya göstərmək istəyirdi. Kimi gördü, yanına qaçıb deyirdi:

- Buynuzlaşmaq istəyirəm!  Gəl buynuzlaşaq!





Bir dəfə çəpiş hind toyuğuna yaxınlaşdı. Yerində atılıb-düşərək dedi:

- Gəl buynuzlaşaq!

Hind toyuğu lələklərini qabartdı:

- Məndən uzaq dur!

Bunu deyib o, özündən razı halda çəpişdən uzaqlaşdı.





Çəpiş hind toyuğundan aralanıb donuza tərəf üz tutdu:

- Gəl buynuzlaşaq!

Donuz burnu ilə torpağı eşə-eşə dedi:

- Əl çək. Səninlə oynamağa vaxtım yoxdur.





Çəpiş qoca qoyunun yanına qaçdı:

– Gəl buynuzlaşaq!

– Məndən kənar dur! – deyə qoyun çəpişə güldü. – Səninlə buynuzlaşmaq mənə yaraşmaz.





Bu vaxt çəpiş hasarın yanında eşələnən küçüyü gördü. Sevincək onun yanına gəldi və dedi:

– Küçük qardaş, gəl buynuzlaşaq!

– Gəl! – deyə küçük də sevindi və çəpişin ayağını bərk dişlədi.

– Dayan! – deyə çəpiş ağladı. – Mən buynuzlaşmaq istəyirəm, bəs sən nə edirsən?

– Mən isə dişləmək istəyirəm, – deyə küçük cavab verdi və çəpişi bir də dişlədi.




*Sergey Mixalkov*

# ÇƏPİŞ

Rəssamlar
Elçin Cabbarov
Səidə Eyvazova

MƏNİM İLK KİTABIM
seriyasından olan kitablar
**4-7 yaşlı uşaqlar**
üçün nəzərdə tutulmuşdur.

© Altun Kitab
www.altun-kitab.com



ISBN 978-9952-24-095-5

1.00 AZN